

# Azərbaycan romansının banisi

**Asəf Zeynalabdin oğlu Zeynallı 1909-cu il aprelin 5-də Dərbənd şəhərində yoxsul ailədə anadan olmuşdur. O, ibtidai təhsilini Dərbənd realnı məktəbində almışdır. 1920-ci illərin əvvəlində Bakıya köçmüşdür.**

**Asəf Zeynallı - 100**

Bakıda A.Zeynallı hərbi məktəbə daxil olmuş, ilk dəfə musiqi alətində-klarnetdə çalmağı da burada öyrənmiş, musiqi nəzəriyyəsi üzrə keçilən fənlərlə məşğul olmuşdur.

1926-cı ildə tələbə adı qazanmışdır. O əvvəlcə Konservatoriyanın orkestr fakültəsində (truba) oxumuş, sonra isə bəstəkarlıq fakültəsinə keçmişdir. Müəllimləri Ü.Hacıbəyov, L.P.Yablonko, V.V.Karagiçev olmuşdur. Ü.Hacıbəyov gələcək bəstəkarın yaradıcılıq simasının formalaşmasına böyük təsir göstərmişdir.

Bəstəkar əsərlərinin çoxunu təhsil illərində yazmışdır. Bunlardan fortepiano üçün "Cabargah"ı, skripka üçün "Muğamsayağı" pyesini, xalq mahnısı əsasında iki violençel və fortepiano üçün "İki fuqo"nu göstərmək olar.

1920-ci illərin axırında A.Zeynallı Azərbaycan Tənqid-təbliğ teatrının musiqi şöbəsinin müdiri vəzifəsinə təyin olunmuşdur. 1920-ci illərin sonu-1930-cu illərin əvvəlində özünün ən məşhur əsərlərini- "Ölkəm", "Sual", "Seyran", "Çadra", "Sərhədçi" romanslarını yazmışdır. Eyni zamanda "Səndən mənə yar olmaz", "Araz" və s. bu kimi mahnıları nota köçürmüş, səs və vokal ansamblı üçün işləmişdir.

1930-cu illərin əvvəlində o, Konservatoriyanın yaradıcılıq bölməsinə rəbbərlik etmiş, Azərbaycan Proletar Musiqiçiləri İttifaqının (APMİ) başçısı olmuşdur.

Asəf Zeynallı bir sıra dram tamaşalarına musiqi tərtibatı vermişdir. C.Cabbarlının "Sevil", Yanovskinin "Qəzəb", Kirşonun "Şimal küləyi", C.Xəndanın "Gizli əl", Ə.B.Hamidin "Hind qızı", S.Rüstəm və H.Nəzərlinin "Yanğın" və s. pyeslərinə musiqi yazmışdır. Bu pyeslərə yazılmış musiqinin ayrı-ayrı hissələrindən 2 hissəli "Fraqmentlər" süitasını bəstəkar Konservatoriyanı bitirdikdən sonra işləmişdir. ("Fraqmentlər"in ikinci süitası bəstəkarın ölümündən sonra onun müəllimi L.P.Yablonko tərəfindən orkestrləşdirilmişdir. O, 1931-ci ildə Leninqrada gedib orada Azərbaycan bəstəkarlarının əsərlərindən ibarət konsert təşkil etmiş və Azərbaycan musiqisi haqqında məruzələrlə çıxış etmişdir.

İlk milli fortepiano musiqi əsərlərinin meydana çıxmasında Asəf Zeynallının müstəsna xidməti olmuşdur. Məhz o, ilk dəfə milli folklor yaradıcılığından əməli şəkildə istifadə edərək klassik Avropa fortepiano musiqisinin ənənələri ilə Azərbaycan xalq musiqisinin səciyyəvi cəhətlərini birləşdirmişdir.

A.Zeynallı Azərbaycan musiqi mədəniyyəti tarixində bir sıra yeni janrın (milli romans və s.) yaradıcısı kimi tanınmış, simfonik, kamera, vokal və instrumental əsərlər bəstələmişdir.

Bəstəkarlardan Q.Qarayev, S.Hacıyev, T.Quliyev, Z.Bağırov onun sinfində oxumuşlar. A.Zeynallı "İbtida not savadı" dərsliyinin müəlliflərindəndir.

A.Zeynallının "Uşaq süitası" Azərbaycanda uşaqla üçün və uşaqlar haqqında yazılmış ilk musiqi nümunə sidir. O, xalq musiqisinin toplanması, nota köçürülməs və işlənməsi sahəsində də faydalı iş aparmışdır. 50 xal mahnısını nota almışdır.

Səfərlərindən birində yatalaq xəstəliyinə tutula gözəl sənətkar 1932-ci il dekabrın 27-də Bakıda vaxtsı vəfat etmişdir. Onun qoyub getdiyi irs Azərbaycan mu siqi mədəniyyətinin təşəkkülü və inkişafına böyük tə kan vermişdir.

**• Nailə ALIŞOV**